**AZƏRBAYCAN RESPUBLIKASI**

*Əlyazması hüququnda*

# MÜASİR BEYNƏLXALQ MÜNASİBƏTLƏRDƏ GÜC FAKTORUNUN QÜTBLƏŞMƏYƏ TƏSİRİ

İxtisas: 5901.01 – Beynəlxalq münasibətlər

Elm sahəsi: Siyasi elmlər

İddiaçı **Sənubər Adışirin qızı Babaşova**

Siyasi elmlər üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim olunmuş dissertasiyanın

**A V T O R E F E R A T I**

**Bakı – 2024**

Dissertasiya işi Bakı Dövlət Universitetinin "Beynəlxalq münasibətlər" kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:** tarix elmlər doktoru, professor
**Ağalar Nəriman oğlu Abbasbəyli**

**Rəsmi opponentlər:** siyasi elmlər doktoru, professor
**Hadi Musa oğlu Rəcəbli**

siyasi elmlər doktoru, professor
**İradə Tofiq qızı Nuriyeva**

siyasi elmlər üzrə fəlsəfə doktoru
**Elvin Bəhruz oğlu Talışınski**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının nəzdində fəaliyyət göstərən FD 2.30 Dissertasiya Şurası

Dissertasiya şurasının sədri: akademik
______________ **Urxan Kazım oğlu Ələkbərov**

Dissertasiya şurasının elmi katibi: siyasi elmlər doktoru, dosent
______________ **Sevda Ağamirzə qızı Əliyeva**

Elmi seminarın sədri: siyasi elmlər doktoru, prof.
______________ **Elçin İldırım oğlu Əhmədov**

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzusunun aktuallığı və işlənmə dərəcəsi.** Müasir beynəlxalq münasibətlərin əsas problemlərindən biri beynəlxalq sistemin təbiətinin öyrənilməsi və onun gələcəyi ilə bağlı bu və ya digər proqnozların müəyyən edilməsi ilə bağlıdır. Beynəlxalq sistem səviyyəsindəki tədqiqatlarda nəzəriyyəçilər sistemi izah edərkən qütbləşmə və qütblülüyə yönəlmişdir. Beynəlxalq sistemdə qütbləşmə, qütblülük və onun təzahür formaları məhz güc faktorunun təsiri nəticəsində formalaşmaqda və mövcud olmaqdadır. Bu səbəbdən müasir beynəlxalq münasibətlərdə güc faktorunun qütbləşməyə təsiri tədqiqatın mərkəzində dayanmaqdadır. Problemin öyrənilməsi həm beynəlxalq münasibətlərdə bir sıra qeyri-müəyyənliklərin aradan qaldırılması, həm də beynəlxalq münasibətlər sisteminin dinamikasının müəyyənləşdirilməsi baxımından olduqca önəmlidir. Bu kontekstdə dissertasiya mövzusunun aktuallığı aşağıdakı amillərlə bağlıdır:

*Birincisi,* güc faktoru beynəlxalq münasibətlər nəzəriyyəsi və siyasi elmin bütün klassik və müasir məktəbləri, paradiqmaları və istiqamətləri tərəfindən təhlil edilmişdir. Müxtəlif nəzəri yanaşmalar öz izahatlarında bu konsepsiyaya mərkəzi yer verir. Realizm ilə eyniləşdirilən güc konsepsiyası əslində bir çox yanaşmalarda mühüm yer tutur. Bu səbəbdən müxtəlif mövqe və yanaşmaların öyrənilməsi məqsədəuyğundur.

*İkincisi,* müasir beynəlxalq münasibətlərdə yeni aktorların meydana çıxması, beynəlxalq təşkilatlar və beynəlxalq siyasətdə dünya ictimai rəyinin rolunun artması səbəbindən istənilən nəticələrin əldə edilməsində hərbi gücün tətbiqinin səmərəsizliyi, silahlı qüvvələrin səmərəliliyinin və cəlbediciliyinin azalması, beynəlxalq iqtisadi və mədəni əlaqələrin inkişafı gücün formalarının təsnifləşdirilməsi və konseptləşdirilməsinə səbəb oldu. Gücün formalarının təsnifləşdirilməsi və konseptləşdirilməsi isə beynəlxalq münasibətlərin aktorları, o cümlədən böyük dövlətlərin xarici siyasi fəaliyyətini yenidən nəzərdən keçirərək yeni doktrina və strategiyalara yönəlməsinə səbəb oldu. Bu nöqteyi-nəzərdən, sərt, yumşaq və ağıllı güc siyasətlərinin nəzərdən keçirilməsi zəruridir.

*Üçüncüsü,* siyasi elmdə qütb, qütblülük və qütbləşmə konsepsiyalarının ümumi qəbul edilmiş tərifi mövcud deyil. Bir çox tədqiqatlarda, xüsusilə qütblülük və qütbləşmə konsepsiyaları eyni terminlər kimi istifadə edilir. Belə yanaşmalar yanlış mülahizələrə səbəb olmaqdadır. Bu səbəbdən qütb, qütblülük və qütbləşmə konsepsiyalarının

müxtəlif yanaşma və mövqelərdən izah olunması məqsədəuyğundur.

*Dördüncüsü, «*soyuq müharibə»nin başa çatması və yeni sistemin bərqərar olması ilə birlikdə, onun təbiəti və dinamikasının müəyyənləşdirilməsi ilə bağlı müxtəlif ideya və yanaşmalar meydana çıxdı. Bir sıra siyasətçi, nəzəriyyəçi və tədqiqatçılar beynəlxalq sistemin təbiəti, xarakteri və dinamikası ilə bağlı iki müxtəlif ideyanı – təkqütblülük və çoxqütblülüyü müdafiə edirlər. Onlar beynəlxalq sistemin təbiətinə münasibətdə tamamilə müxtəlif və zidd mövqedən çıxış edirlər. Təkqütblü və çoxqütblü sistemlə bağlı yanaşmalara əlavə olaraq, müasir beynəlxalq münasibətlərdə heç bir fövqəldövlətin mövcud olmadığı və qeyri-sabitliyin hökm sürdüyü qütbsüzlüklə (apolyarlıq) bağlı ideyalar bərqərar oldular. Çoxsaylı regional güclər, milli dövlətlər daxilindəki aktorlar, enerji, maliyyə və istehsalat daxil olmaqla böyük qlobal şirkətlər, qlobal media orqanları, siyasi partiyalar, dini qurumlar və hərəkatlar, terror təşkilatları, narkotik kartelləri və xeyirxah xidmət QHT-lərinin meydana çıxması qütbsüzlüklə bağlı ideyaların yayılmasına səbəb oldu.

*Beşincisi,* beynəlxalq sistemdə güc faktorunun qütbləşməyə təsiri istiqamətində yanaşmalar qütblülük və beynəlxalq sistemin sabitliyi ətrafında tədqiqatlarda əksini tapmışdır. Bu səbəbdən qütblülük və müharibə arasındakı əlaqəni müəyyən etməyə yönəlmiş tədqiqatların öyrənilməsi məqsədəuyğundur.

*Altıncısı*, böyük dövlətlərin gücünü müəyyənləşdirən vacib amillər, eyni zamanda dövlətlər arasında güc nisbətini müəyyənləşdirməsi istiqamətində əhəmiyyətlidir. Böyük dövlətlər arasındakı güc nisbəti beynəlxalq sistemin təbiətinə əhəmiyyətli təsir göstərir. Bu nöqteyi-nəzərdən böyük dövlətlər arasında güc nisbətinin nəzərdən keçirmək güc faktorunun beynəlxalq sistemə təsirini müəyyənləşdirmək üçün məqsədəuyğundur.

*Yeddincisi,* İkinci Qarabağ müharibəsində sərt, yumşaq və ağıllı gücün tətbiqi Azərbaycan Respublikasının qələbəsini təmin etmişdir. İkinci Qarabağ müharibəsi və müharibədən sonrakı mərhələdə Azərbaycan Respublikası tərəfindən sərt, yumşaq və ağıllı güc vasitələrinin uğurla və səmərəli tətbiqi bütün dövlətlər üçün nümunə oldu. Azərbaycan Respublikasının İkinci Qarabağ müharibəsində qələbəsini şərtləndirən amillər, sərt, yumşaq və ağıllı güc vasitələrinin tətbiqinin öyrənilməsi elmi və siyasi baxımdan vacibdir.

Müasir beynəlxalq münasibətlərdə qütbləşmə prosesləri, güc

faktorunun daim aktuallığı və onun qütbləşməyə təsiri bir sıra siyasi nəzəriyyə və məktəblərin diqqət mərkəzindədir. Qütbləşmənin və onun ayrılmaz hissəsi olan güc faktorunun qlobal problem olması onu siyasi elmin tədqiqat obyektinə çevirir. Qütbləşmə probleminin və güc faktorunun qütbləşməyə təsirinin öyrənilməsi siyasi elm üçün böyük əhəmiyyət daşımaqdadır. Yuxarıda da qeyd edildiyi kimi, müasir beynəlxalq münasibətlərdə qütbləşmə və onun mərkəzində olan güc faktorunun təsiri qlobal və olduqca mürəkkəb problemdir və bu səbəbdən siyasi araşdırmalar aparan elmi institutların və digər mərkəzlərin analiz və tədqiqatlarında vacib yerdə durmaqdadır. ilk öncə qeyd etmək lazımdır ki, dissertasiya işinin mövzusu ilə bağlı Azərbaycan dilində elmi tədqiqat işləri olduqca az saydadır.

Soyuq müharibə başa çatmasından sonra beynəlxalq münasibətlərdə baş verən hadisə və proseslər, beynəlxalq sistemin qeyri-müəyyənliyi, dövlətlərarası münasibətlərdə güc amilinin rolunun artması nəzəriyyəçilərin, tədqiqatçıların və bir sıra dövlət xadimlərinin diqqətini cəlb etmişdir.

Mövzu ilə bağlı Azərbaycanlı müəlliflərdən A.N. Abbasbəyli, Ə.G. İbrahimov, E.M. Nəsibov, M.V. Babazadə[1] və digər müəlliflər güc və hərbi güc, gücün formaları, beynəlxalq sistem istiqamətində araşdırmalar aparmışdır. Tədqiqat işində adı çəkilən müəlliflərin monoqrafiya və məqalələrinə istinad edilmişdir.

A.N. Abbasbəyli «Müasir dünyanın siyasi mənzərəsi» adlı monoqrafiyasında hərbi güc amilinin beynəlxalq münasibətlərdəki yeri və əhəmiyyətini qeyd etmişdir. Müəllif beynəlxalq münasibətlərdə hərbi güc faktorunun nəzərdən keçirilməsi zamanı bu məsələnin ən azı iki tərəfini fərqləndirir. Birincisi, bu müharibənin və siyasətin nisbəti problemidir, onun təhlili isə nəinki onların qarşılıqlı təsirini, həmçinin beynəlxalq münasibətlərdə zorun açıq şəkildə tətbiq edilməsinin nəticələrini aşkar etməyə imkan verir. İkincisi, bu problem dövlətin hərbi gücünə təsir edən

---

[1] Abbasbəyli, A.N. Müasir dünyanın siyasi mənzərəsi / – Bakı: Təhsil NPM, –2008. s. 276; İbrahimov, Ə.G. Beynəlxalq münasibətlərin və münaqişələrin tədqiqi sahəsində əsas paradiqmalar // Beynəlxalq turizmə innovativ yanaşmaların siyasi və iqtisadi aspektləri. – Bakı: Afpoliqraf, – 25-26 dekabr, 2017. – s. 27-32, İbrahimov, Ə.G. Ordu Quruculuğu // – Bakı: Vətən müharibəsi tarixi: şəxsiyyət faktoru, – 2021. – s. 128-136; Nəsibov, E.M., Siyasət / – Bakı: Elm və təhsil, – c. 2. – 2010. – 599 s.; Бабазаде, М.В. «Жесткая» и «мягкая сила»: теория и реалии мировой политики // – Баку: Афполиграф, – 2017. – с. 18-26

və bu gücü təşkil edən faktorlar problemidir. Birinci tərəf daha sabit, dövlət, dövlətlərarası münasibətlər, xarici siyasət kimi daha ümumi anlayışlar ilə bağlıdır. İkincisi, daha hərəkətli və dinamikdir, çünki burada cəmiyyətin ictimai-siyasi təşkilinin səviyyəsi, istehsal qüvvələrinin inkişaf səviyyəsi kimi faktorlar mühüm rol oynayır[2]. Monoqrafiyada, həmçinin NATO-nun Qafqazda və Azərbaycanda geostrateji maraqları əksini tapmışdır[3].

İkinci Qarabağ müharibəsinə həsr olunmuş «Vətən Müharibəsi Tarixi: Şəxsiyyət faktoru» adlı kitab Azərbaycan Respublikasının 44 günlük müharibədə qazandığı böyük qələbəyə həsr olunmuşdur. Kitabda E. Əhmədovun "Diplomatik fəaliyyət", Ə. İbrahimovun «Ordu quruculuğu», C. Bayramovun «Prezident İlham Əliyevin müharibə dövrü diplomatiyası və xarici siyasət», M. Əmrahovun «Azərbaycanın haqq işinə dəstək: Müharibə dövrü məktubları»[4] və digər məqalələr yer almışdır. Tədqiqat işində qeyd olunmuş məqalələrə istinad edilmişdir.

İkinci Qarabağ müharibəsi dövründə Azərbaycan Respublikası prezidenti İlham Əliyevin bəyanatları, çıxışları, yerli və xarici müxbirlərlə müsahibələri «dəmir yumruq» əməliyyatı barəsində əsas mənbələr hesab olunur.

Türk müəlliflərindən E.Aydemir, S.Güner, S.Yılmaz, P.Akgül, A.Güner, H.Çakmak, T.Arı, M.Aslan, H.Korkmaz[5] və digər müəlliflərin

---

[2] Abbasbəyli, A.N. Müasir dünyanın siyasi mənzərəsi / – Bakı: Təhsil NPM, –2008. s. 133

[3] Abbasbəyli, A.N. Müasir dünyanın siyasi mənzərəsi / – Bakı: Təhsil NPM, –2008. s. 242-243

[4] Əhmədov E.İ. Diplomatik fəaliyyət, Bakı: Vətən müharibəsi tarixi: şəxsiyyət faktoru //– 2021. – s. 97-127; İbrahimov, Ə.G. Ordu Quruculuğu // – Bakı: Vətən müharibəsi tarixi: şəxsiyyət faktoru, – 2021. – s. 128-136; Bayramov, C.Ə. Prezident İlham Əliyevin müharibə dövrü diplomatiyası və xarici siyasəti // – Bakı: Vətən müharibəsi tarixi: şəxsiyyət faktoru, – 2021. – s. 224-246; Əmrahov, M.İ. Azərbaycanın haqq işində dəstək: Müharibə dövrü məktubları // – Bakı: Vətən müharibəsi tarixi: şəxsiyyət faktoru, – 2021. – s. 310-324

[5] Aydemir, E. Dış Potitikada Yumuşak Güç ve Medyası / – İstanbul: Kalkedon Yayınları, – 2016. – 477 s., Güner, A.U. Uluslararası İlişkilerde Güç Kavramı ve Enerji Kaynaklarının Güce Etkisi / – Ankara: Gazi Kitapevi, – 2020. – s. 175-195; Yılmaz, S. Güç ve Politika / – İstanbul: Alfa Yayınları, – 2008. – 624 s.; Akgül, P. Barış çalışmaları Başlangıçtan günümüze değişim // – Yalova: Barış Araştırmaları ve Çatışma Çözümleri Dergisi, – 2016. № 3, – s. 85-106, Güner, A.U. Uluslararası İlişkilerde Güç Kavramı ve Enerji Kaynaklarının Güce Etkisi / – Ankara: Gazi Kitapevi, – 2020. – s. 175-195;

əsərlərində müasir beynəlxalq münasibətlərdə güc faktoruna nəzəri yanaşmalar, yumşaq, sərt və ağıllı güc fenomenləri, müasir beynəlxalq sistem ətrafında tədqiqatlar öz əksini tapmışdır. Azərbaycan Respublikasının İkinci Qarabağ müharibəsində qazandığı uğurlar və şanlı qələbə türk müəlliflərinin tərəfindən tədqiq edilmişdir.

Dünya mediasının regiondakı reallıqları əks etdirməkdən çəkindiyi günlərdə Anadolu Agentliyi fədakarlıq, cəsarət və peşəkarlıqla müharibənin hər anını bütün dünyaya bəyan etmişdir. Anadolu Agentliyinin Qarabağ Qələbəsinə həsr olunan «Qarabağ zəfəri» adlı 228 səhifə və 3 hissədən ibarət kitab Qarabağ zəfərinin necə qazanıldığını, günbəgün hansı proseslərdən keçdiyini fotoşəkillər və qrafiklərlə təqdim edir. Türkiyə Respublikası Prezidenti Rəcəb Tayyib Ərdoğanın imzasını daşıyan kitabın birinci hissəsində problemin tarixi əsasları ümumiləşdirilir, ikinci və ən mühüm hissəsi isə Anadolu Agentliyinin Qarabağ müharibəsi zamanı əldə etdiyi xəbər və fotoşəkillərdən ibarətdir. Üçüncü hissədə həm regional, həm də dünya siyasəti baxımından Qarabağ qələbəsinin nəticələrindən bəhs edən məqalələrə yer verilmişdir. Tədqiqat işində Qarabağ zəfərini əks etdirən bir sıra məqalələrə istinad edilmişdir.

Beynəlxalq münasibətlərdə güc faktoru, gücün elementləri, qütbləşmə və müasir beynəlxalq münasibətlərdə qüvvələr balansı rusiyalı tədqiqatçılar tərəfindən araşdırılmışdır. Belə tədqiqatçılardan V.İ. Annekov, Y.P. Davidov, A.Q. Duqin, V.M. Rusakov[6] və digərlərini qeyd etmək olar.

Rusiyalı tədqiqatçı V.İ. Annekov «Beynəlxalq münasibətlərdə hərbi güc» adlı elmi əsərində güc faktorunun və hərbi gücün müasir beynəlxalq

---

Çakmak, H. Türkiyenin Karabağ Politikası // Dünden Bugüne Karabağ Sorunu, – Ankara: Yenisey Kitap, – 2021. – s. 155-160, Arı, T. Uluslararası İlişkiler Teorileri / 10. Baskı, – Bursa: Aktüel Basım, – 2021. – 582 s., Aslan, M. Azerbaycanın İkinci Karabağ Savaşındakı Askeri Harekatı Zaferin Teknik Analizi / – İstanbul: Seta Kitapları, – 2021. – s. 245-269, Korkmaz, H. Küresel organik kriz ve yeni soğuk savaş: ABD ve Çinin sınırsız rekabeti / – Ankara: Nobel Bilimsel Eserler, – 2021. – 284 s.

[6] Анненков, В.И. Военная сила в международных отношениях / – Москва: КноРус, – 2011. – 494 с.; Давыдов, Ю.П. Понятие «жёсткой» и «мягкой» силы в теории международных отношений // Международные процессы, – Москва: Международные процессы, – 2004. № 4, – с. 69-80, Дугин, А.Г. Международные отношения: (парадигмы, теории, социология) –Москва: Академический проект, – 2014. – 430 с., Русаков, В.М. «Мягкая сила» военной мощи // – Екатеринбург: Дом Дискурс-Пи, – 2017. – с. 96-107

siyasətdəki roluna xüsusi diqqət ayırmışdır. Ümumilikdə güc anlayışına izah gətirən müəllif xarici siyasi fəaliyyətdə gücün tətbiqi metodlarını, dövlətin hərbi gücünün növlərini, hərbi gücün funksiyalarını araşdırmışdır. Beynəlxalq münasibətlər nəzəriyyəsində əsas konsepsiyalardan biri olan qüvvələr balansı və onun sosial məzmunu elmi əsərdə öz əksini tapmışdır. Müəllif əsərdə Rusiya və ABŞ da daxil olmaqla bir sıra dövlətlərin hərbi təhlükəsizlik strategiyasının xüsusiyyətlərinə və hərbi güc faktorunun bu və ya digər təsirinə yer vermişdir[7].

Rusiyanın İkinci Qarabağ müharibəsindəki obyektiv mövqeyinə baxmayaraq, bir sıra siyasi dairələr Rusiyanı KTMT-nin münaqişəyə müdaxilə etməməsi səbəbindən tənqid edirdilər. Rusiyanın Strategiyaların və Texnologiyaların Təhlil Mərkəzinin analitiki K.V. Makienko «Qafqazda fırtına» adlı analitik kitabda «İkinci Qarabağ müharibəsinin əsas məğlubu Rusiyadırmı?» adlı məqalədə qeyd edirdi ki, Rusiyanın Ermənistanı müdafiə etməməsi KTMT üzvlərinin Moskvanın qüdrətinə inamını sarsıtmışdı. Hərbi ekspert bildirir ki, Rusiyanın mövqeyi KTMT-nın reputasiyasına açıq-aşkar ziyan vurdu[8].

Qərb tədqiqatçılarından R. Aron, R. Koks, C. Levi, B. Meskita, K. Volts və F. Veymen[9] qütblülük, qütbləşmə, ittifaq və digər dəyişənlərin beynəlxalq sistemin sabitliyinə və müharibənin baş verməsinə təsirini

---

[7] Анненков, В.И. Военная сила в международных отношениях / – Москва: КноРус, – 2011. – 494 с.

[8] Макиенко, К.В. Россия как главная проигравшая сторона во второй карабахской войне? / – Москва: Графика, – 2021. – с. 39-47.

[9] Aron, R. Peace and War: Theory of international relations / – New York: Routledge Press, – 2003. – 846 p., Cox, R.W. Approaches to World Order / T. J. Sinclair. – Cambridge: Cambridge University Press. – 1996. – 552 p., Levy, J.S. Alliance Formation and War Behavior: An Analysis of the Great Powers 1495–1975 // – New York: Journal of Conflict Resolution, – 1981. 25 (4), – p. 581–613, Mesquita, B. Measuring systemic polarity // – New York: The Journal of Conflict Resolution, – 1975. 19 (2), – p. 187–216., Waltz, K.N. Realist Thought and Neorealist Theory // – New York: Journal of International Affairs, – 1990. 44, – p. 21-37, Waltz, K.N. Stability of a Bipolar World // – Cambridge: Population, Prediction, Conflict, Existentialism, – 1964. 93 (3), – p. 881-909, Waltz, K.N. Structural Realism After the Cold War // – Cambridge: International Security, – 2000. 25 (1), – p. 5-41, Waltz, K.N. Theory of International Politics / – New York: McGraham-Hill, – 1979. – 251 p., Wayman, F.W. Bipolarity and war: The role of capability concentration and alliance patterns among major powers, 1816–1965 // – New York: Journal of Peace Research, – 1984. 21 (1), – p. 61–78.

müəyyənləşdirmək istiqamətində tədqiqatlar aparmışdırlar. Qərb müəlliflərindən Q.T. Allison, S. Hantinqton, Z. Bjzezinski, J.I. Jablonski, R. Kohen, C. Nay, G. Keersmaeker, K. A. Minst[10] və digərləri güc faktoru, elementləri, formaları, beynəlxalq sistem, soyuq müharibənin başa çatması nəticəsində bərqərar olmuş sistemin xüsusiyyətləri, böyük dövlətlərin fəaliyyətinə təsiri, müasir dövrdə qüvvələr balansı istiqamətində ətraflı tədqiqat işləri aparmışdır.

Amerikalı analitik C. Nay özünün «Yumşaq güc: Dünya siyasətində uğurun yolları» və «Yumşaq güc və Amerikanın xarici siyasəti» adlı əsərlərində müasir beynəlxalq münasibətlərində gücün formalarının – sərt və yumşaq gücün dövlət siyasətinə və beynəlxalq münasibətlərə təsirini araşdırmışdır. «Yumşaq güc» mədəni dəyərlər, əməkdaşlıq, ictimai diplomatiya vasitəsilə cəlbetmə və inandırma metodlarının tətbiqi nəticəsində dövlətlərin, institutların və təşkilatların siyasi məqsədlərə çatmaq vasitəsidir. Yumşaq gücün səmərəliliyi dövlətlərin mədəni və siyasi ideyalarının cəlbediciliyindən asılıdır[11].

Tədqiqat işinin yazılmasında bir sıra beynəlxalq hüquqi sənədlər, dövlət başçıları, xarici işlər nazirliyi və dövlət rəhbərlərinin bəyanat, məruzə və çıxışları, kütləvi informasiya vasitələrinin materialları, internet resursları istifadə edilmişdir.

Beləliklə, yuxarıda şərh etdiklərimizdən belə qənaətə gəlmək olar ki, problemin müxtəlif aspektlərinin toxunulduğu bəzi kitab və məqalələrin olmasına baxmayaraq, mövzu hərtərəfli tədqiq olunmamışdır. Azərbaycanda gücün elementləri, tətbiqi metodları və formaları təhlil olunsa da gücün ölçülməsi, çoxqütblü, ikiqütblü və təkqütblü sistemlərin

---

[10] Allison, G.T. Destined for war: Can America and China escape Thucydides's trap? / – Melbourne: Scribe Publications, – 2017. – 384 p., Hantinqton, S. Sivilizasiyaların toqquşması və dünya nizamının yenidən təşkili / tərc. A. Mütəllimov, – Bakı: TEAS PRESS, – 2019. – 381 s., Bjezinski, Z. Strateji Baxış: Amerika və qlobal böhran / tərc. Y. Əsədov, – Bakı: Qanun Nəşriyyatı, – 2016. – 304 s., Jablonsky, D. National power // – Washington: Strategic Studies, – 2001. – p. 87-106, Keohane, R.O. Power and interdependence / J.S. Nye. – Boston: Longman, – 2012. – 330 p., Nye, J.S. Future of power / – New York: Public Affairs, – 2011. – 320 p., Keersmaeker, G. Polarity, balance of power and international relations theory, post-Cold War and 19th century, 1st edition / – London: Palgrave Macmillan, – 2017. – 258 p., Mingst, K.A. Essentials of international relations / – New York: Norton Company, – 2018. – 544 p.

[11] Nye, J.S. Soft Power: The Means to Success in World Politics / – New York: Public Affairs, – 2004. – 191 p.

struktur elementləri, qütbləşmə və onun beynəlxalq sistemə təsiri, güc faktorunun qütbləşməyə təsiri sistemli şəkildə vahid problem kimi öyrənilməmişdir.

**Tədqiqatın obyekti və predmeti**. *Tədqiqatın obyektini* beynəlxalq münasibətlərdə qütbləşmə təşkil edir. Güc qütbləşməyə təsir edən amillərdən biri olaraq *predmet* seçilmişdir

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqat işinin məqsədi müasir beynəlxalq münasibətlərdə böyük dövlətlər arasındakı güc nisbətini təhlil edərək güc faktorunun beynəlxalq sistemə və qütbləşməyə təsiri olduğunu müəyyən etməkdir.

Bu məqsədə nail olmaq üçün aşağıdakı tədqiqat vəzifələri müəyyən edilmiş və yerinə yetirilmişdir.

– Beynəlxalq münasibətlərə dair nəzəri məktəblərdə, xüsusən realizm nəzəri bazasında əhəmiyyətli yeri olan güc faktoruna nəzəri yanaşmaları təhlil etmək;

– Beynəlxalq münasibətlərdə gücün tətbiq metodları və formalarını, onların səmərəliliyini təhlil etmək, sərt, yumşaq və ağıllı güc siyasətinin böyük dövlətlətlərin xarici siyasi fəaliyyətinə təsirini müəyyənləşdirmək;

– Çoxqütblü, ikiqütblü, təkqütblü sistemlərinin xarakterik xüsusiyyətlərini müəyyənləşdirmək, bir-biri ilə qarşılıqlı təhlilini aparmaq və müxtəlif nəzəriyyəçilərin mövqe və yanaşmalarını analiz etmək;

– Müasir beynəlxalq münasibətlərdə böyük dövlətlər arasında güc nisbətinin beynəlxalq sistemə və qütbləşməyə təsirini tədqiq etmək;

– İkinci Qarabağ müharibəsində Azərbaycanın qələbəsinə təsir göstərən sərt, yumşaq güc vasitələrini təhlil etmək;

**Tədqiqatın metodları.** Tədqiqat işinin ümumi metodoloji əsasını beynəlxalq münasibətlər nəzəriyyəsinin realist, neorealist, liberal və neoliberal yanaşmalar təşkil edir. Tədqiqatın aparılması zamanı siyasi və geosiyasi proseslərin təhlili məqsədilə nəzəri təhlil metodlarından, sistemli yanaşma əsasında analiz və sintez, induksiya və deduksiya kimi ümummıntiqi metodlardan, tarixi-müqayisəli təhlil, kontent-analiz və digər elmi araşdırma metodlarından istifadə olunmuşdur.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Dissertasiya işi çərçivəsində müdafiəyə çıxarılan əsas müddəalar aşağıdakılardır:

– Beynəlxalq münasibətlərdə baş verən hadisə və proseslər güc konsepsiyasına təsir göstərməkdədir. Klassik yanaşmalar güc

konsepsiyasını fiziki güclə eyniləşdirdiyi halda, hazırda güc mədəniyyət, informasiya, texnologiya və s. elementləri özündə birləşdirir;

- Gücün formaları – sərt və yumşaq gücün tətbiqindən səmərə əldə etmək üçün onlar arasında mütləq balans mövcud olmalıdır. Ağıllı güc sərt və yumşaq güc arasında balans və uyğunluğu təmin edir;
- Qütb, qütblülük və qütbləşmə konsepsiyalarının hər biri güc faktorunun təsiri nəticəsində formalaşmışdır;
- Qütblülüyün ayır-ayrı modellərinin meydana çıxması beynəlxalq siyasətdə baş verən mühüm dəyişikliklərin və tarixi proseslərin nəticəsi olmuşdur;
- Dövlətlərin iqtisadi, siyasi və hərbi imkanları güc nisbətini müəyyən edir. Dövlətlər arasındakı güc nisbəti həm beynəlxalq sistemin strukturuna, həm də qütbləşməyə təsir göstərməkdədir;
- Çoxqütblü sistemlərdə gücün təxminən bərabər bölgüsü özünü təmin edən aktorların sayının və qarşıdurma ehtimalının artmasına səbəb olmaqdadır. İkiqütblü sistemlərdə isə gücün qeyri-bərabər bölgüsü özünü təmin edən aktorların sayının və qarşıdurma ehtimalının azalmasına səbəb olmaqdadır;
- Güc faktorunun beynəlxalq sistemin strukturuna təsiri olduğu kimi, beynəlxalq sistemin strukturu da güc faktoruna təsiri göstərməkdədir. Soyuq müharibə illərində beynəlxalq sistemin strukturu və beynəlxalq ictimaiyyətin nüvə silahından istifadəyə münasibəti istifadə olunan və istifadə olunmayan güc konsepsiyalarının meydana çıxmasına səbəb olmuşdur;
- Müasir beynəlxalq münasibətlərdə böyük dövlətlər arasındakı güc nisbəti onların xarici siyasəti, qütbləşmə və beynəlxalq sistemin strukturuna əhəmiyyətli təsir göstərir;
- İkinci Qarabağ müharibəsində Azərbaycan Respublikası tərəfindən sərt və yumşaq güc vasitələrinin səmərəli tətbiqi müharibənin nəticəsinə əhəmiyyətli təsir göstərmişdir;

**Dissertasiya işinin elmi yeniliyi.** Azərbaycan siyasi fikrində beynəlxalq münasibətlərdə güc faktorunun qütbləşməyə təsiri hələ ayrıca tədqiqat obyekti olmamışdır. İşin elmi yeniliyini aşağıdakı kimi xülasə etmək olar:

- Gücün ölçülməsi məqsədilə təklif olunmuş müxtəlif düstur və

metodlar təhlili yeni metodoloji yanaşma olaraq tətbiq olunmuşdur. Əhali, ərazi, iqtisadi qabiliyyət, hərbi qabiliyyət kimi maddi elementlərin, strateji məqsəd, milli iradə kimi qeyri-maddi elementlərə nisbətən daha səmərəli olduğu müəyyən edilmişdir;

- Sərt, yumşaq və ağıllı gücün davranış modelləri, əsas vasitə və mənbələri, tətbiqi imkanları təhlil edilmiş, gücün formalarının dövlətlərin beynəlxalq aləmdəki mövqeyinə təsiri olduğu müəyyən edilmişdir;
- Müəyyən edilmişdir ki, qütb, qütblülük və qütbləşmə konsepsiyaları məhz güc faktorunun təsiri nəticəsində formalaşmışdır;
- Təkqütblü, ikiqütblü və çoxqütblü sistemlərin struktur elementləri təhlil edilmiş, güc faktorunun təkqütblü, ikiqütblü və çoxqütblü sistemlərin strukturuna təsiri olduğu müəyyən edilmişdir;
- Böyük dövlətlərin arasında güc nisbəti nəzərdən keçirilmiş, dövlətlər arasındakı güc nisbətinin beynəlxalq sistemin formalaşmasına təsiri əsaslandırılımışdır;
- Ermənistan və Azərbaycanın İkinci Qarabağ müharibəsi ərəfəsində hərbi güc nisbətini əks etdirən cədvəl tərtib olunmuş, iki dövlət arasındakı hərbi güc nisbətinin müharibənin nəticəsinə təsir etdiyi müəyyən olunmuşdur;
- Azərbaycan Respublikasının İkinci Qarabağ müharibəsində sərt və yumşaq güc vasitələrinin istifadəsi təhlil edilmiş, məhz sərt və yumşaq gücün düzgün istifadə edilməsinin qələbənin əsasında dayandığı sübut edilmişdir;
- Bir sıra elmi ədəbiyyatlar ilk dəfə olaraq bu tədqiqat işində elmi dövriyyəyə gətirilərək problemin daha dərindən araşdırılmasında istifadə edilmişdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Dissertasiyada qoyulan problemlər güc faktorunun müasir beynəlxalq sistem və qütbləşməyə təsiri, beynəlxalq münasibətlərdə baş verən hadisə və proseslərin beynəlxalq sistem və qütbləşmənin qanunauyğunluqları ilə vahid çərçivəyə salınması baxımından olduqca böyük əhəmiyyət daşıyır. Dissertasiyanın məntiqindən irəli gələn nəticələr və müəllifin tövsiyələri beynəlxalq münasibətlər, politologiya və fəlsəfə fənlərinin tədrisində,

beynəlxalq münasibətlər nəzəriyyəsi, dünya siyasəti və s. mövzularda xüsusi kursların aparılmasında, eləcə də mühazirə mətnlərinin hazırlanmasında, siyasi və ictimai hərəkatların praktiki fəaliyyətinin qiymətləndirilməsində, onun imkanlarının proqnozlaşdırılmasında, ali məktəblər üçün dərslik və dərs vəsaitlərinin hazırlanmasında istifadə oluna bilər.

**Aprobasiyası və tətbiqi.** Dissertasiya işinin mövzusuna aid 25 elmi əsər, o cümlədən on məqalə (2-i xarici jurnallarda), 15 tezis (11-i beynəlxalq) çap olunmuşdur. İşin əsas hissələri Azərbaycan, Rusiya, Birləşmiş Krallıq, Türkiyə, Niderland, İsveç, Avstriya, ABŞ, Almaniya, Kanada, Yaponiya və İspaniyada keçirilən beynəlxalq və respublika konfranslarında məruzə və müzakirə edilmişdir:

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Tədqiqat işi Bakı Dövlət Universiteti Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin Beynəlxalq münasibətlər kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya işi giriş, üç fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. 7 cədvəl və 198 adda mənbədən ibarət ədəbiyyat siyahısı istisna olmaqla dissertasiya işinin ümumi həcmi 256548 işarədir (Giriş – 19582 işarə, I fəsil – 86893 işarə, II fəsil – 62592 işarə, III fəsil – 78896 işarə, Nəticə – 8585 işarə).

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

**Girişdə** tədqiq olunan mövzunun aktuallığı əsaslandırılır, problemin elmi araşdırılma dərəcəsi təhlil edilir, tədqiqatın obyekti və predmeti, məqsəd və vəzifələri, həmçinin metodları müəyyənləşdirilir, müdafiəyə çıxarılan əsas müddəalar təqdim edilir, elmi yeniliyi, nəzəri və praktik əhəmiyyəti açıqlanır.

Dissertasiyanın I fəsli **"Güc faktoru beynəlxalq münasibətlərin əsas atributlarından biri kimi"** adlanır. Bu fəslin **"Beynəlxalq münasibətlərdə güc faktoruna nəzəri yanaşmalar" adlanan birinci yarımfəslində** güc konsepsiyasına klassik və müasir yanaşmalar təhlil edilmişdir. Beynəlxalq münasibətlər nəzəriyyəsinin qədim məktəblərindən hesab olunan klassik realizmin ilk nümayəndələri – Fukidid, Nikola Makiavelli, Tomas Hobbs, Karl fon Klauzevits beynəlxalq münasibətlərə dair ilk yanaşma və ideyalarını məhz güc

faktoruna əsaslandırmışdılar.

Klassik realistlər dövlətlərin güc əldə etmək istəyi və hakimiyyət uğrunda mübarizəni insan təbiəti ilə əlaqələndirirlər. İdealistlər gücün beynəlxalq nizamı pozduğunu hesab edirlər. Neorealizmin nümayəndələri dövlətlərin güc əldə etmək istəyini beynəlxalq sistemin strukturu ilə əlaqələndirirlər. Neoliberalizmin nümayəndələrinin güc faktoruna yanaşması neorealizmin yanaşmasından ciddi fərqlənmir. Neoliberalizmin tərəfdarları neorealizmin nümayəndələrindən fərqli olaraq, hesab edirlər ki, hərbi güc beynəlxalq münasibətlərdəki önəmini itirir, müasir beynəlxalq sistemdə hərbi və strateji məsələlərin yüksək pillədə, iqtisadi məsələlərin daha az əhəmiyyətli olduğu iyerarxik düzən mövcud deyil. Müxtəlif nəzəriyyə və yanaşmalar hərbi və iqtisadi gücə fərqli prioritetlər versə belə, hər biri gücün beynəlxalq münasibətlərdə əhəmiyyətini qəbul etməkdədir[12].

Müxtəlif yanaşmaların təhlili nəticəsində aydın olur ki, beynəlxalq münasibətlərdə baş verən hadisə və proseslər nəticəsində güc konsepsiyasına təsir göstərməkdədir. Əvvəllər güc faktoru deyildikdə fiziki elementlər yada düşürdü. Soyuq müharibə illərində beynəlxalq sistemin strukturu və beynəlxalq ictimaiyyətin nüvə silahından istifadəyə münasibəti istifadə olunan və istifadə olunmayan güc konsepsiyalarının meydana çıxmasına səbəb olmuşdur. Bu məqamda aydın olur ki, beynəlxalq sistemin strukturu güc faktoruna təsir göstərməkdədir.

**“Beynəlxalq münasibətlərdə güc faktorunun təbiəti, fundamental elementləri” adlanan ikinci yarımfəslində** güc faktorunun fundamental elementləri və dövlətlər arasında nisbi gücün müəyyən edilməsi istiqamətində müxtəlif düstur və metodlar təhlil edilmişdir. Gücün elementlərinin ümumi qəbul olunmuş təsnifatı üç əsas qrupda öz əksini tapmaqdadır. Coğrafiya, təbii resurslar və əhalini gücün təbii qrupu ehtiva edir. Sənayenin və infrastrukturun inkişafı, siyasi struktur və milli mənəviyyat gücün sosial elementləri qrupudur. Nəhayət, gücün ideoloji elementlərini ideyalar, ictimai dəstək, intellektual fəaliyyət və siyasi və hərbi idarəetmə keyfiyyəti ehtiva edir.

Gücün bütün ünsürləri bir-birləri ilə qarşılıqlı əlaqədə olması səbəbindən bu elementlərin qruplaşdırılması qədər ölçülməsi də olduqca çətindir. Gücün elementlərinin klassifikasiyası ilə bağlı bir sıra düsturlar

---

[12] Babaşova, S.A. Beynəlxalq münasibətlər klassik nəzəriyyəsində güc və onun identikfikasiyası // – Bakı: Tarix və onun problemləri – 2018. № 3, – s. 218-222, s. 222

işlənib hazırlanmışdır. Belə düsturlardan biri də amerikalı analitik nəzəriyyəçi Ray S. Klaynın «milli gücün ölçülməsi üçün düsturu»dur. R. Klaynın düsturu əhali, ərazi, iqtisadi və hərbi imkanlarla yanaşı strateji məqsəd və milli strategiyanın reallaşdırma əzmi maddi elementlərlə yanaşı qeyri-maddi elementləri də əks etdirməkdədir. Qeyri-maddi elementləri qeyri-dəqiq nəticələrə gətirib çıxardığı üçün belə metod və düsturlar ayrı-ayrı ölkələrin gücünün ölçülməsi məqsədilə səmərəli deyil. D. Sinqer və M. Small tərəfindən təklif edilən metodlar isə əsasən qeyri-maddi elementlərlə hesablamanı nəzərdə tutmaqdadır. Belə hesablamalar daha dəqiq məlumatları əks etdirdiyi üçün daha səmərəli və uğurludur. Soyuq müharibə dövründə böyük dövlətlərin gücünün ölçülməsi nəticəsində əldə edilən nəticələri nəzərdən keçirdikdə aydın olur ki, Sinqer və Small tərəfindən təklif edilən düsturlardan ən səmərəlisi ikinci metoddur.

**"Beynəlxalq siyasətdə gücün tətbiqi metodları və formaları" adlı üçüncü yarımfəsildə** gücün tətbiqi metodları və formaları təhlil edilir.

Dövlətlərarası münasibətlərdə güc tətbiqi və qarşılıqlı təsiri metodları inandırma, mükafatlandırma, məcburetmə, cəzalandırma və fiziki gücün tətbiqidir. İnandırma qarşı tərəfin düşüncə, fəaliyyət və ya davranışını dəyişməyə yönələn proses və ya fəaliyyəti ehtiva edir. Dövlət qarşı dövlətə bir sıra maddi, iqtisadi və siyasi xarakterli vədlər verməklə fəaliyyətini öz tələbinə uyğun dəyişdirmək məqsədilə mükafatlandırma metodunu tətbiq edir. Gücün bu metodu əsasən dövlətlərin sərt güc və qismən iqtisadi güc siyasətinə xidmət edir. Cəzalandırma metodu isə sərt gücün tətbiqini – mövcud tariflərin yüksəldilməsi, diplomatik əlaqələrin kəsilməsi, embarqo tətbiq edilməsi və s. nəzərdə tutur. Cəzalandırma metodunun məntiqi davamı məcburetmə metodudur. Gücdən istifadənin ən son metodu fiziki gücün tətbiqidir. Dövlət fiziki gücü ən sonda, digər güc tətbiqi metodlarının uğursuz olduğu zaman həyata keçirir.

Gücün formaları isə sərt, yumşaq və ağıllı güc hesab olunur. "Sərt güc" gücün fiziki, dinamik və kinetik vasitələrinin tətbiqini nəzərdə tutur. Sərt güc məcburetmə və cəzalandırma metodlarının tətbiqini ehtiva edir. Bu nöqteyi nəzərdən sərt güc digər aktorlara öz iradəsilə qəbul etmədiyi fəaliyyəti reallaşdırmağa və ya məcbuertməyə əsaslanır.

"Yumşaq güc" mədəni dəyərlər, əməkdaşlıq, ictimai diplomatiya vasitəsilə cəlbetmə və inandırma metodlarının tətbiqi nəticəsində

dövlətlərin, institutların və təşkilatların siyasi məqsədlərə çatmaq vasitəsidir. Gücün digər formaları öz xarakter, məqsəd və vasitələrinə görə beynəlxalq hüquq prinsiplərinə zidd və ya qanuni olmaya bilər.

Müasir dünya siyasəti praktikası münasibətlərin razılıq və qarşılıqlı ünsiyyətə əsaslanmasını zəruri etməkdədir. Təzyiq, məcburetmə və fiziki güc tətbiqi əldə edilən nəticələrin daimiliyini və səmərəliliyini azaltmaqla yanaşı, sərt gücün yenidən istifadə olunmasını zəruri etməkdədir. Eyni zamanda bir sahə üzrə məcburetmə və təhdid kimi vasitələrə yönələn dövlət tərəfindən başqa sahələrdə yumşaq güc tətbiq edilməsi qarşılıqlı etimad və inandırıcılığı aradan qaldırır. Bu səbəbdən ağıllı güc sərt və yumşaq güc vasitələrinin balanslı və rasional səviyyədə tətbiqinə şərait yaratmaq məqsədilə irəli sürülmüşdür[13].

Sərt və yumşaq güc vasitələrinin tətbiqindən səmərəli nəticə əldə etmək üçün onlar arasında mütləq balans mövcud olmalıdır. Ağıllı güc sərt və yumşaq güc arasında balans və uyğunluğu təmin edir. Sərt və yumşaq güc resurslarının vəhdətini təşkil edən ağıllı güc yumşaq və sərt güc vasitələrini əvəz etmək məqsədi deyil, tamamlamaq məqsədi daşıyır[14].

Dissertasiyanın ikinci fəsli "**Beynəlxalq münasibətlərdə qütb, qütblülük və qütbləşmə prosesləri"** adlanır. Bu fəslin ilk **"Qütb, qütblülük və qütbləşmə nəzəri tədqiqatlarda" adlanan yarımfəslində** qütb, qütblülük və qütbləşmə konsepsiyaları müxtəlif elm, nəzəriyyə və paradiqmalar nöqteyi nəzərindən araşdırılmışdır.

Beynəlxalq sistemin strukturunun müəyyənləşdirilməsi baxımından müxtəlif mövqe və yanaşmalar təhlil edilmişdir. Təhlil zamanı aydın olur ki, beynəlxalq sistemin stukrunun müəyyənləşdirilməsi nöqteyi nəzərindən ən uğurlu yanaşma C.Modelski və V.R.Tompsona məxsusdur. Bu yarımfəsildə həmçinin Soyuq müharibənin başa çatması və yeni sistemin bərqərar olması nəticəsində meydana çıxan ideya və yanaşmalar təhlil edilmişdir. Bu ideyalar əsasən təkqütblü və çoxqütblü sistemlə ilə bağlı idi. Təkqütblü və ya çoxqütblü sistemlə bağlı yanaşmalara əlavə olaraq, müasir beynəlxalq münasibətlərdə heç bir fövqəldövlətin mövcud

---

[13] Babaşova, S.A. Beynəlxalq münasibətlər sistemində gücün formaları və effektivliyi // – Bakı: Sosial, iqtisadi, və siyasi sferaların qarşılıqlı təsir problemləri, 2016, s. 64-69, s. 68

[14] Babaşova, S.A. Neoliberalizmdə güc konsepti: sərt, yumşaq və ağıllı güc // – Bakı: İqtisadi və siyasi elmlər jurnalı – 2018. № 4 (13), – s. 94-101, s.99

olmadığı və qeyri-sabitliyin hökm sürdüyü qütbsüzlüklə (apolyarlıq) bağlı ideyalar bərqərar oldular. Qütbsüzlüyün nəzəri bazası Riçard Haas tərəfindən irəli sürülmüşdür. Çoxsaylı regional güclər, milli dövlətlər daxilindəki aktorlar, enerji, maliyyə və istehsalat daxil olmaqla böyük qlobal şirkətlər, qlobal media orqanları, siyasi partiyalar, dini qurumlar və hərəkatlar, terror təşkilatları, narkotik kartelləri və xeyirxah xidmət QHT-lərinin meydana çıxması qütbsüzlüklə bağlı ideyaların yayılmasına səbəb olmuşdur.

Fəslin növbəti **"Təkqütblü, ikiqütblü və çoxqütblü sistemlərin struktur elementləri və qütbləşmə" adlanan ikinci yarımfəslində** qütblülüyün müxtəlif modelləri, onların struktur elementləri, sabitliyi və qütbləşmə təhlil edilmişdir.

Çoxqütblü sistem ən azı üç qütbün və ya aktorun mövcud olduğu strukturdur. Bu aktorlar qütb statusuna malik olmaq üçün böyük güc potensialına sahib olmalıdırlar. Ənənəvi realizmin nümayəndələri çoxqütblü sistemi təxminən bərabər gücə malik üç və ya daha çox əsas aktorun mövcud olduğu və aktorlar arasında müttəfiqliyin və ziddiyyətlərin müşahidə edildiyi sistem kimi qiymətləndirirlər.

Klassik realizmin nümayəndələri Karl Deuts və David Sinqer hesab edirdilər ki, çoxqütblülük qeyri-müəyyənlik və dolayı yolla münaqişə ehtimalını artırmağına baxmayaraq, münaqişənin intensivliyini azaltmaqdadır. Çoxqütblü sistemdə oyunçuların sayı çox olduğundan bir dövlətin digər dövlətə qarşı antaqonist hissləri minimal səviyyədə olur. Aktorların və ya böyük güclərin sayı artdıqca beynəlxalq sistemə təhlükə doğuracaq ciddi münaqişə və böhranların qarşısı alınır[15].

İkiqütblülük iki böyük blok ətrafında birləşmiş dövlətlər, rejimlər və ideologiyalar çərçivəsində və iki fövqəldövlətin maraqlarının dominant olduğu strukturda formalaşmış sistemdir. İkiqütblülük soyuq müharibə illərində iki qütb arasında iqtisadi, hərbi və sosial-mədəni/ideoloji sahələrdə kəskin rəqabətlə xarakterizə edilir.

İkiqütblü sistemdə rəqabətin miqyası və intensivliyi beynəlxalq sistemə təsir göstərən faktorlardan biri idi. İki supergüc arasında kosmik rəqabət, iqtisadi inkişaf, silahlanma, hərbi siyasi bloklaşma, ideoloji mübarizə xüsusi intensivliyə ilə seçilirdi. ABŞ və SSRİ arasında hərbi siyasi bloklaşma, ideoloji mübarizə, iqtisadi inkişaf, silahlanma sahəsində

---

[15] Deutsch, K. Multipolar power systems and international stability, // J.D. Singer. – Baltimore: World Politics, – 1964. 16 (3), – p. 390-406, p. 399

daim simmetrik rəqabət mövcud idi. İki böyük gücdən birinin əldə etdiyi nailiyyət digəri tərəfindən diqqətlə izlənirdi[16].

Neorealizmin nümayəndəsi K. Volts beynəlxalq sistemin sabitliyini iki əsas amillə əlaqələndirirdi. Bunlardan birincisi, sistemin strukturunun davamlılığıdır. Sistemdə güc nisbətinin dəyişməsi nə qədər çətin olarsa, sistem bir o qədər sabitdir. Müvafiq olaraq sistemdə böyük dövlətlər klubuna daxil olmaq üçün tələblər nə qədər yüksək olarsa, sistemdəki strukturu qorumaq da bir o qədər mümkündür. İkinci amil sistemi müəyyən edən böyük dövlətlərin sayıdır. K. Voltsun fikrincə, beynəlxalq sistemin sabitliyi üçün ən azı iki böyük dövlətin mövcudluğu şərtdir. Böyük dövlətlərin sayı artdıqca rəqabət və qarşılıqlı münasibətlər mürəkkəbləşir və xərclər artır. Böyük dövlətlərin sayı azaldıqca sistemdə baş verən dəyişiklikləri öncədən müəyyənləşdirmək mümkün olur[17]. K. Voltsun beynəlxalq sistemə yanaşması klassik realistlərin yanaşması ilə oxşarlıq təşkil edir. Klassik realistlər beynəlxalq sistemin sabitliyini gücün bərabər bölüşdürülməsi ilə əlaqələndirdiyi halda, K. Volts əksinə nisbi imkanların qeyri-bərabər bölüşdürülməsi nəticəsində beynəlxalq sistemdə sülh və sabitliyə nail olmağın mümkün olduğunu bildirirdi.

Beləliklə, gücün təxminən bərabər bölgüsü özünü təmin edən aktorların və onlar arasında qarşıdurma ehtimalının artmasına səbəb olmaqdadır. Dövlətlərin bir-birinə meydan oxuduğu zaman kimin qalib gələcəyi ilə bağlı aydın təsəvvür yaratmaq və proqnozlaşdırmaq çətin olduğundan, qalib gəlmək və ya uduzmaq ehtimalı bərabər göründüyündən beynəlxalq sabitlik də təhlükə altında olur. Gücün qeyri-bərabər bölgüsü özünü təmin edən aktorların və onlar arasında qarşıdurma ehtimalının azalmasına səbəb olmaqdadır. Bir aktor digərlərindən kifayət qədər güclü olduqda, belə vəziyyətdə dövlətlər öz hərəkətlərinin nəticələrini daha aydın proqnozlaşdıra bilirlər. Bir sözlə, çoxqütblü sistemlərdə gücün təxminən bərabər bölgüsü özünü təmin edən aktorların sayının artması və onlar arasında qarşıdurma ehtimalının artmasına səbəb olmaqdadır. İkiqütblü sistemlərdə isə gücün qeyri-bərabər bölgüsü özünü təmin edən aktorların və onlar arasında qarşıdurma ehtimalının

---

[16] Бабашова, С.А. Волны большого соперничества в полярных системах, – Самара: Азимут, – 2018. № 1 (22), – с. 292-295, с. 294

[17] Waltz, K.N. Theory of international politics / – New York: McGraham-Hill, – 1979. – 251 p. p. 134

azalmasına səbəb olmaqdadır[18].

Beləliklə, müxtəlif yanaşma və tədqiqatlar nəticəsində belə qənaətə gəlirik ki, güc faktorunun beynəlxalq sistemin strukturuna, qütblülüyə və qütbləşməyə təsiri mövcuddur. Dövlətlərin iqtisadi, siyasi və hərbi imkanları güc nisbətini müəyyən edir. Dövlətlər arasında güc nisbəti beynəxalq sistemin qütblülüyünə, eyni zamanda ittifaqların və blokların formalaşmasına təsir göstərməkdədir. Həmçinin beynəlxalq sistemin strukturunun güc faktoruna təsiri mövcuddur. İkiqütblü sistemdə nüvə silahının istifadə edilməməsi də beynəlxalq sistemin sturukturu və beynəlxalq ictimaiyyətin mövqeyi ilə əlaqədar idi. Bu fakt beynəlxalq sistemin strukturunun güc faktoruna təsirini sübut edir.

Dissertasiyanın üçüncü fəsli **“Müasir beynəlxalq münasibətlərdə sistemində güc faktorunun dövlətlərin mövqeyinə təsiri”** adlanır. Bu fəslin birinci **“Müasir beynəlxalq münasibətlərdə böyük dövlətlər arasında güc nisbətinin qütbləşməyə təsiri” adlanan yarımfəslində** müasir beynəlxalq münasibətlərdə böyük dövlətlər arasında güc nisbəti təhlil edilmişdir.

ABŞ ən böyük büdcəyə malik dövlət olsa belə, Çin son illərdə müdafiəyə ayrılan büdcəyə görə ən çox diqqət çəkən dövlət hesab oluna bilər. Çin son on ildə müdafiə xərclərini 72% artırıb 293 milyard dollara çatdırmışdır. Çin donanmasında 2000-ci ildən 2020-ci ilə qədər gəmilərin sayı üç dəfə (110-dan 360-a) artırmışdır. Beləliklə, Çin ABŞ-ı da geridə qoyaraq dünyanın ən böyük donanmasına malik ölkəyə çevrilmişdir. Həmçinin Çin hava qüvvələri baxımından böyük gücə malikdir. Xalq Azadlıq Ordusu 2800 təyyarə (təlim və pilotsuz uçuş aparatları istisna olmaqla) ilə regionda ən böyük, dünyada üçüncü böyük dövlətdir[19].

ABŞ son illərdə regionda siyasi və hərbi fəaliyyətlərinin miqyasını genişləndirmişdir. 2021-ci ilin aprel ayında əvvəlki illə müqayisədə ABŞ-a məxsus müşahidə təyyarələri 40%, döyüş gəmiləri 20% fəallığını artmışdır. ABŞ Hərbi Dəniz Qüvvələrinin Cənubi Çin dənizindəki sərbəst səfərləri 2015-ci ildə ildə bir dəfə olduğu halda, 2020-ci ildə bu rəqəm 10-a çatmışdır[20].

---

[18] Babashova, S. A. Security in unipolar, bipolar and multipolar systems // – Vienna: World Science Priorities, – p. 99-101, p. 100

[19] Babashova, S. A. Polarization in South-East Asia in modern period // – Toronto: Scientific Research in the Modern World, – 2023, – p. 566-571, p. 567

[20] International Crisis Group, Risky Competition: Strenthening US-China Crisis

ABŞ Çinin artan hərbi gücünə qarşı region ölkələri ilə müxtəlif dialoq və ittifaqlar vasitəsilə cavab verir. ABŞ, Hindistan, Yaponiya, Avstraliyadan ibarət «QUAD» Hind-Sakit Okean regionundakı əsas təşəbbüslərdən biridir. 2020-ci ildə ABŞ, Hindistan, Yaponiya və təlimlərdə iştirak etməkdən imtina edən Avstraliya Çinin Cənub Çin dənizində beynəlxalq məhkəmənin qərarına etiraz etməsindən sonra Malabar dəniz təlimində iştirak etdilər. Döyüş gəmiləri, sualtı qayıqlar və döyüş təyyarələrinin daxil olduğu təlim ABŞ, Hindistan, Yaponiya və Avstraliya tərəfindən Çinə qarşı atılan ən ciddi addımdır[21].

Avstraliya, Birləşmiş Krallıq, ABŞ-dan ibarət 2021-ci ildə təsis edilmiş «AUKUS» müasir dövrdə Çin və ABŞ münasibətlərində ən çox gərginliyə səbəb olan təşəbbüsdür. AUKUS Cənubi Çin dənizində Çinin hərbi gücünün və bölgədə artan nüfuzunun qarşısını almaq məqsədi daşımaqdadır.

Hərbi potensialın vacib şərtlərindən biri də ölkənin iqtisadi gücüdür. İqtisadi imkanları olmayan bir aktorun böyük dövlət gücünün əvəzsiz elementi olan müasir, mobil və güclü orduya malik olması mümkün deyil. ABŞ qlobal arenada ən böyük iqtisadiyyata malik dövlətdir. ÜDM nominal 2021-ci ildə 22, 939.58 dollara çatmışdır. Dünya iqtisadiyyatında payı 24.2%-dir. Lakin, ÜDM-nin xarici borca nisbəti 133% təşkil edir[22] və bu kifayət qədər böyük rəqəmdir. İqtisadi sahədə ABŞ-ın ən böyük rəqibi yenə Çindir. Çində ÜDM nominal 2021-ci ildə 16, 862.98 dollar təşkil edir. Hazırda Çinin dünya iqtisadiyyatındakı payı 17.8% təşkil edir. ÜDM-nin xarici borca nisbəti 69% təşkil edir [23].

Çin müxtəlif əməkdaşlıq formaları və təşəbbüslər vasitəsilə beynəlxalq aləmdə öz mövqeyini gücləndirməyə çalışır. Çinin rəhbərlik etdiyi "Asiya İnfrastruktur və İnvestisiya Bankı", "Asiya İnkişaf Fondu", "BRICS" (Brazilya, Rusiya, Hindistan, Çin, Cənubi Afrika) və "BRICS Bankı" ABŞ-ın böyük nüfuza malik olduğu Beynəlxalq Valyuta Fondu,

---

Management // Brussels, – 20 May 2022. URL: https://www.crisisgroup.org/asia/ north-east-asia/china-united-states/risky-competition-strengthening-us-china-crisis-management

[21] Babashova, S. A. Balance of power in modern international relations // – 2022, – Kars-Eskisehir: Turk's Victory: from Chanakkale to Karabakh, – p. 273-275, p. 274

[22]Amoros, R. Visualizing the State of Global Dept, by Country / 1 February 2022. URL: https://www.visualcapitalist.com/global-debt-to-gdp-ratio/

[23] Amoros, R. Visualizing the State of Global Dept, by Country / 1 February 2022. URL: https://www.visualcapitalist.com/global-debt-to-gdp-ratio/

Dünya Bankı, Dünya Ticarət Təşkilatı kimi təşkilatlara qarşı uğurlu alternativlərdir[24].

Qeyd etmək lazımdır ki, ABŞ və Çin qlobal rəqabətdə olsalar da, iqtisadi cəhətdən bir-birindən asılıdırlar. ABŞ administrasiyası son illərdə Çinə qarşı sərt siyasət yürütsə də, onların bir-birinə qarşı müharibəsi hər ikisi üçün iqtisadi böhran, indiki mövqe və güclərini itirməsi ilə nəticələnə bilər. ABŞ və Çinin iqtisadi əlaqələr baxımından bir-birinə ehtiyacı olduğu və illər keçdikcə iqtisadi əlaqələrinin daha da dərinləşdiyi müşahidə edilir[25]. Tariflər və iki dövlət arasında ticarət əlaqələrini məhdudlaşdıran digər tədbirlərə baxmayaraq, son illərdə ticarət dövriyyəsi 500 milyard dollardan çox olmuşdur[26]. Bu səbəbdən ABŞ və Çin hərbi sahədə bir-birinə qarşı rəqabət aparsalar belə, onlar arasında qızğın münaqişə ehtimalı azdır.

Beləliklə, böyük dövlətlər arasında gücün müxtəlif parametrləri üzrə aparılmış təhlil nəticəsində belə qənaətə gəlirik ki, dövlətlər arasındakı güc nisbəti həm beynəlxalq sistemin strukturuna, həm də qütbləşməyə təsir göstərməkdədir. ABŞ və Çin nümunəsində aydın oldu ki, beynəlxalq sistemdə qütbləşməyə təkan verən məhz dövlətlər arasındakı güc nisbətidir. Çinin müdafiəyə ayırdığı büdcənin artması, silahlı qüvvələrinin hərbi modernizasiyası, təlimlərin keçirilməsi ABŞ-ın eyni addımları atmasına, müxtəlif təşəbbüslərə yönəlməsinə səbəb olmuşdur. Həmçinin ABŞ-ın Çin və Rusiyanın nüfuz qazanmasının qarşısını almaq məqsədilə onları beynəlxalq əməkdaşlıqdan təcrid etmək cəhdləri, müxtəlif sanksiyalar və tədbirlər bu dövlətlərin iqtisadiyyat və ticarət sahəsində müxtəlif təşəbbüslərə və əməkdaşlıq platformalarına yönəlməsinə səbəb olmuşdur. Bu kontekstdə qeyd edə bilərik ki, müasir beynəlxalq münasibətlərdə böyük dövlətlər arasında qütbləşmə mövcuddur və güc faktorunun təsiri aydın müşahidə edilir. Lakin, müasir beynəlxalq sistemdə yüksək intensivliklə xarakterizə edilən qütbləşmə mövcud deyil. Türkiyə, Macarıstan kimi NATO-ya üzv dövlətlərin Rusiya ilə əlaqələri və bu qənaətə gəlməyə imkan verir.

---

[24] Doster, B. Ukrayna-Rusya Savaşı ve Avrasya // – İstanbul: Ukrayna-Tarih Yapan Savaş, – 2022. – s. 65-76, s. 74

[25] Çiçek, M. ABD-Çin rekabeti ekseninde AB-Çin ilişkileri / – İstanbul: Cinius Yayınları, – 2019. – 180 s., s. 109

[26] Korkmaz, H. Küresel organik kriz ve yeni soğuk savaş: ABD ve Çinin sınırsız rekabeti / – Ankara: Nobel Bilimsel Eserler, – 2021. – 284 s., s. 167

Fəslin ikinci **“İkinci Qarabağ müharibəsində Azərbaycanın qələbəsində sərt və yumşaq gücün rolu” adlı yarımfəslində** Vətən müharibəsi dövründə Azərbaycan Respublikası tərəfindən sərt və yumşaq gücün düzgün istifadə edilməsinin dövlətimizin qələbəsində rolu təhlil edilmişdir.

Azərbaycanı İkinci Qarabağ müharibəsində qələbəyə aparan birinci amil onun bu məsələdə haqlı mübarizəsidir. Ermənistan soyuq müharibədən sonrakı dönəmdə regionda yaranmış güc boşluğu nəticəsində Azərbaycana aid Dağlıq Qarabağ və ətrafında yerləşən yeddi rayonu beynəlxalq hüququn prinsiplərinə əhəmiyyət vermədən işğal etmişdir. BMT başda olmaqla bir çox beynəlxalq təşkilatların çağırışlarına məhəl qoymayan Ermənistan işğala davam etmişdir. Nəticə etibarilə, 27 sentyabrda başlayan hərbi əməliyyatlarda Azərbaycan birmənalı haqlı tərəf idi. Azərbaycanın öz ərazi bütövlüyü uğrunda haqlı mübarizəsi zamanı müharibə hüququna uyğun fəaliyyət göstərməsi yumşaq gücünə töhfə vermiş beynəlxalq ictimaiyyətin dəstəyinin qazanılmasına səbəb olmuşdur.

Azərbaycan Respublikası prezidenti İlham Əliyevin xalqa müraciətləri, çıxışları, yüksək emosionallığı, fikirləri, üslub və intonasiyası ordumuza güc və qüvvət, xalqımıza böyük ruh yüksəkliyi və əminlik bəxş etmiş siyasi inam və milli birliyin güclənməsinə səbəb olmuşdur. Vətən müharibəsi zamanı Azərbaycanda yaşayan etnik icma rəhbərlərinin Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinə ünvanladığı bəyanatda erməni terroru pislənib Azərbaycan ordusunun qələbəsinə inam və həmrəylik nümayiş etdirilmişdir[27].

Azərbaycan Respublikası «Silahlı münaqişə zamanı mədəni mülkiyyətin mühafizəsi haqqında» Haaqa Konvensiyasına tərəfdar dövlət kimi torpaqlarımızı işğaldan azad edərkən tarixi və mədəni irsə xüsusi həssaslıqla yanaşıb bütün dünya dövlətlərinə nümunə olmuşdur. Şuşa əməliyyatı Azərbaycan ordusunun və xalqımızın tarixi və mədəni dəyərlərimizə verdiyi dəyər və önəmi ifadə edir. Şuşa şəhəri təbii istehkam olduğundan şəhərə tanklarla, ağır silahlarla daxil olmaq mümkün olmamışdır. Şəhərin hava zərbələri və top atəşləri ilə bombardman edilməsi böyük dağıntılara səbəb olacağından qəhrəman Azərbaycan əsgəri yüngül silahlarla qalın meşələrdən, dərin dərələrdən

[27] Əmrahov, M. Azərbaycanın haqq işində dəstək: Müharibə dövrü məktubları // – Bakı: Vətən müharibəsi tarixi: şəxsiyyət faktoru, – 2021. – s. 310-324, s. 315-316

keçərək, qayalar, dağlar aşaraq düşməni üzbəüz döyüşdə məhv edib. İşğaldan azad edilmiş ərazidə mədəni və dini ayrı-seçkilik bilmədən mədəni və dini irsin bərpası istiqamətində atılan addımlar, beynəlxalq təşkilatların mövcud vəziyyəti qiymətləndirmək, faktlaşdırmaq üçün cəlb olunması, Azərbaycan Respublikasının bu istiqamətdə qətiyyətli mövqeyi dövlətimizin yumşaq gücünün təcəssümünə çevrilmişdir.

Azərbaycanın qələbəsini şərtləndirən əsas amillərdən biri də Azərbaycan silahlı qüvvələrinin Ermənistan silahlı qüvvələri qarşısındakı açıq üstünlüyü idi. Azərbaycan və Ermənistanın hərbi gücü və silah sistemləri müqayisəsi zamanı Azərbaycanın üstünlüyü xüsusi diqqət çəkməkdədir. Azərbaycan və Ermənistanın 2011-2020-cu illərdə müdafiəyə ayrılan xərclər və bu xərclərin ÜDM nisbətinə diqqət yetirdikdə aydın olur ki, müxtəlif illər üzrə Azərbaycanın hərbi xərcləri Ermənistanla müqayisəyə gəlməyəcək qədər çoxdur. On illik hərbi xərclər nəzərə alındıqda isə Ermənistanın müdafiəyə ayırdığı büdcə Azərbaycanın müdafiəyə ayırdığı büdcənin 20%-dən daha az qismini təşkil edir[28].

Bir sıra mütəxəssislərin «ağıllı müharibə» adlandırdıqları güc və həmrəylik rəmzinə çevrilmiş «dəmir yumruq» əməliyyatı zamanı çox ağıllı hesablama, unikal bir strategiya tətbiq edilmiş, pilotsuz uçuş aparatları (PUA) isə yeni müharibə formatının əsasını qoymuşdur. Bir ordunun düşmənə qarşı hərb meydanında bu səviyyədə yüksəkdəqiqlikli silahlardan istifadə etməsi, hücum dronlarının tətbiqinin miqyası və intensivliyi baxımından dünya tarixində ilk idi. Hərbi mütəxəssislər bildirirlər ki, indiyədək nə böyük dövlətlər nə də digərləri belə miqyasda dronlardan istifadə etməyiblər. Bu səbəbdəndir ki, Azərbaycan Respublikasının silahlı qüvvələri tətbiq etdiyi hərbi taktika dünyanın nüfuzlu hərbi mərkəzləri və strateji araşdırmalar institutları tərəfindən öyrənilir. Bu məqamda deyə bilərik ki, Azərbaycan Respublikası silahlı qüvvələrinin reallaşdırdığı hərbi əməliyyatlar dövlətimizin həm sərt, həm də yumşaq gücünün elementi kimi çıxış etmişdir.

Bu hissədə 10 noyabr 2020-ci il tarixli Üçtərəfli bəyanat, Türkiyə Respublikası və Rusiya Federasiyası ilə imzalanmış Şuşa və Moskva bəyannamələri və bu bəyannamələrin regionda yeni formalaşmış nizama təsiri araşdırılmışdır. Həmçinin 19-20 sentyabr 2023-cü il tarixində həyata

---

[28] SIPRI, Military Expenditure Database 2011-2020,
URL: https://milex.sipri.org/sipri

keçirilmiş antiterror əməliyyatı zamanı hərbi gücün tətbiqi ilə Azərbaycan Respublikasının ərazi bütövlüyünü və suverenliyini tam bərpası öz əksini tapmışdır. Qarabağda bir gün ərzində reallaşmış və uğurla başa çatmış antiterror əməliyyatı Azərbaycanın və dünya hərb tarixinin nadir hadisəsidir. Azərbaycan Respublikası dövlət başçısının xüsusi tapşırığı əsasında antiterror əməliyyatı zamanı mülki əhaliyə zərər yetirməmək və erməni əhalisinin təhlükəsizliyini təmin etmək məqsədilə həyata keçirilmiş tədbirlər dünyaya Azərbaycanın yüksək humanizmini sübut etmişdir.

**Nəticədə** tədqiqata yekun vurulmuş, ümumiləşdirmələr əsasında nəzəri və praktiki əhəmiyyət kəsb edən tövsiyyələr irəli sürülmüşdür. Müəllif belə nəticəyə gəlmişdir ki, beynəlxalq münasibətlərdə güc faktoru həm beynəlxalq sistemin strukturuna, həm də qütbləşməyə təsir göstərməkdədir. Həmçinin müasir beynəlxalq münasibətlərdə dövlətlər arasındakı güc nisbəti qütbləşmənin formalaşmasına təsir göstərməkdədir. Müasir beynəlxalq münasibətlərdə qarşılıqlı asılılıq və bir sıra dövlətlərin çoxtərəflilik prinsipi əsasında böyük dövlətlərin hər biri ilə əməkdaşlıq etməsi nəticəsində belə qənaətə gəlirik ki, müasir beynəlxalq sistemdə yüksək intensivliklə xarakterizə edilən qütbləşmə müşahidə edilmir.

**Dissertasiyanın məzmunu müəllifin aşağıdakı çap olunmuş məqalələrində öz əksini tapmışdır.**


1. Beynəlxalq sistemdə güc və qütbləşmə // “Beynəlxalq hüquq və inteqrasiya prosesləri”, Bakı Universiteti nəşriyyatı, Bakı, 2015, s. 206-209
2. The European Union as a Polar Power in the international system //, “Beynəlxalq münasibətlər, milli təhlükəsizlik, geoiqtisadiyyat və geosiyasətin fundamental və tətbiqi problemləri”, Bakı, 26-27 noyabr 2015, № 4 (44) s. 58-64
3. Beynəlxalq sistemdə güc faktorunun qütbləşməyə təsiri // “Mədəni Müxtəliflik: Dünya və Azərbaycan”, Elmi Praktiki Konfrans materialları, Bakı, 29 aprel 2016, s. 178-180
4. Beynəlxalq münasibətlər sistemində gücün formaları və effektivliyi // Elmi Praktiki Konfrans materialları, Bakı, 24-25 noyabr 2016, s. 64-69
5. Beynəlxalq münasibətlər nəzəriyyələrində balanslaşdırma və əks nəzəriyyələr // “Tarix və onun problemləri”, Adiloğlu, Bakı, 2017, № 4, s. 217-222

6. Qüvvələr balansı nəzəriyyəsi və müasir beynəlxalq münasibətlər sisteminin dinamikası // "İqtisadi və siyasi elmlər" jurnalı, Nurlar Nəşriyyat, Bakı, 2017, № 2 (7), s. 40-48
7. Beynəlxalq sistemdə super güc rəqabəti və güc mərkəzləri // Elmi Praktiki Konfrans materialları, Bakı, 25-26 dekabr 2017, s. 62-68
8. Биполярность в международной системе и ее динамика // "Политикус" науковый журнал, Гелветика, Одеса, 2017, Випуск 6, с. 118-121
9. Волны большого соперничества в полярных системах // "Азимут" научных исследований: экономика и управление, Ежеквартаьный научный журнал, Самара, 2018, № 1 (22), с. 292-295
10. Neoliberalizmdə güc konsepti: Sərt, yumşaq və ağıllı güc // "İqtisadi və siyasi elmlər jurnalı" , Nurlar Nəşriyyat, Bakı, 2018, № 4, s. 94-101
11. Beynəlxalq münasibətlər klassik nəzəriyyəsində güc və onun identifikasiyası // "Tarix və onun problemləri", Adiloğlu, Bakı, 2018, № 3, s. 218-223
12. The evolution of the terms polarity, bipolarity, multipolarity and unipolarity in the context of international system // Агентство международных исследований, Международной научно-практической конференции, Российская Федерация, Оренбург, 27 сентября 2022, p. 50-53
13. How William C. Wohlforth's Unipolar Stability Theory determines the world // 2022, Агентство международных исследований, Международной научно-практической конференции, Российская Федерация, Оренбург, 2022, p. 38-41
14. Müasir beynəlxalq münasibətlərdə Avropa İttifaqının sərt və yumşaq güc siyasəti // "Geostrategiya" "Kaspi" geosiyasi araşdırmalar mərkəzi, MSV Nəşr, Bakı, sentyabr-oktyabr 2022, № 5 (71), s. 28-30
15. Müasir dövrdə Çinin yumşaq güc siyasəti: problemlər və perspektivlər // "Tarix və onun problemləri", Adiloğlu, Bakı, 2022, s. 150-153
16. Azərbaycan respublikasının çoxtərəfli və balanslaşdırılmış xarici siyasətində Rusiya Federasiyasının yeri // "Geostrategiya" "Kaspi" geosiyasi araşdırmalar mərkəzi, MSV Nəşr, Bakı, noyabr-dekabr 2022, № 6 (72), s. 23-27

17. Soft balancing by China in modern international relations // Sciene and Innovation of Modern World, Proceedings of III International scientific and practical conference, The United Kingdom, London, p. 559-563
18. Balance of power in modern international relations // The XXXII International scientific symposium, Turk's Victory: from Chanakkale to Karabakh, Turkey, Kars-Eskisehir, p. 273-275
19. Balance of power in the theory of international relations // Агентство международных исследований, Международной научно-практической конференции, Российская Федерация, Оренбург, p. 88-91
20. Classical realism and power in the theory of international relations // Proceedings of the 1st International Scientific Conference «Foundations and Trends in Research». The Netherlands, Amsterdam, p. 41-43
21. Hard, soft and smart power in international relations // XVI International Scientific and practical conference "Modern science: Innovations and Prospects", Sweden, Stockholm, p. 367-372
22. Security in unipolar, bipolar and multipolar systems // I International Scientific Conference. "World Science Priorities", Austria, Vienna, p. 99-101
23. Theory of international system and Morton Kaplan // IV International Scientific and Practical Conference "Progressive research in the modern world", USA, Boston, p. 529-534
24. Multipolarity in modern international relations-Russian-Chinese approaches // IV International Scientific and Practical Conference «Scientific Progress: Innovations, Achievements and Prospects», (Germany, Munich, January 9-11 2023).
25. Polarization in South-East Asia in modern period III International Scientific and Practical Conference «Scientific Research in the Modern World» (Canada, Toronto, January 12-14, 2023).
26. Types of power in theory of international relations, IV International Scientific and Practical Conference «Science and Technology: Problems, Prospects and Innovations» (Japan, Osaka, January 18-20, 2023).
27. XIII International Scientific and Practical Conference «Eurasian Scientific Discussions» (Spain, Barcelona, January 22-24, 2023).

Dissertasiyanın müdafiəsi "22" fevral 2024-cü il tarixində saat 11:00-da Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası nəzdindəki FD 2.30 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ 1001, Bakı şəhəri, Lermontov küçəsi, 74

Dissertasiya ilə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının elmi kitabxanasında tanış olmaq olar.

Dissertasiya və avtoreferatın elektron versiyaları Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat "19" yanvar 2024-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 12.01.2024
Kağızın formatı: A5
Həcm: 45434
Tiraj: 100